AZƏRBAYCAN ORDUSU

# Ali Baş Komandan: Yenilməz ordu Azərbaycan Ordusudur!

*Vətən müharibəsində tarixi qələbə qazandıq. Bu qələbə ordunun şəxsi heyətinin döyüş və mənəvi-psixoloji hazırlığının, ordu ilə xalqın yüksək səviyyədə münasibətinin, sərkərdənin sərkərdəliyinin vəhdətidir.*

**Gizir Zamiq Əliyev:**

- Vətənsevərlik ana qucağından, evdən, ailədən başlayır. Vətən, torpaq sevgisi ailədə aşılanır insana. Süddən, qandan, gendən gəlir Vətən sevgisi. Ailə də, ev-eşik də torpağın üzərində pərvəriş tapdığı üçün ən ümdə sevgimizin içində torpaq xüsusi önəm, müqəddəslik daşıyır. Qeyrətli oğullar Vətənin dar günündə düşmən qarşısına çıxaraq sinəsini sipər edir. Şəhidlik qeyrətin, qəhrəmanlığın, hünərin, təəssübkeşliyin, ən əsası vətənpərvərliyin heç bir zaman yox olmaması üçündü.

Sentyabrın 27-dən başlayan



döyüşlər, qazanılan qələbələr göstərdi ki, Azərbaycan Ordusunun qüdrəti qarşısında heç bir qüvvə dayana bilməz. Əsgərlərimizdə çox böyük ruh yüksəkliyi var idi. Onlar bu gücü, qüvvəti xalqımızın mənəvi dəstəyindən, Ali Baş Komandanımızın qətiyyətindən alırdılar. Ən böyük arzumuz torpağımızı son qarışınadək işğaldan azad etmək, oraya üçrəngli bayrağımızı sancmaq idi. Bu istəklə döyüşürdük. Düşmən məğlub olduğunu anladı, lakin bununla barışmaq əvəzinə, mülki insanları, infrastrukturu hədəfə aldı. Bu düşmənin namərdliyinin, şərəfsizliyinin göstəricisi idi. Bir çox beynəlxalq təşkilatlar, dünya dövlətləri təcavüzkar Ermənistanın əməllərinə qarşı çıxıb sivil insanları artilleriya atəşinə tutmağın insanlıqdan uzaq bir addım olduğunu bildirməkdə acizlik göstərsə də, Azərbaycan əsgəri onun cavabını döyüşlərdə layiqincə verdi. Haqq, ədalət bərpa olundu. Vətən müharibəsi ordumuzun qələbəsi ilə başa çatdı. Zəfərimiz mübarək!

**Gizir Niyaməddin Nuriyev:**

- Qəhrəmanlıq bizə tariximizin keçmişiylə də səsləşir. Vətən məhəbbətinin gücü yenilməz olur. Qəlbində torpaq sevgisi olanlar heç kəsə baş əyməzlər. Vətənimizin şanlı tarixi, keçmişi, bu günü və işıqlı gələcəyi hamımız üçün əzizdir. Bu gün hər bir azərbaycanlı işğaldan azad edilən tarixi torpaqlarımızda üçrəngli Azərbaycan bayrağının dalğalanmasını görür, qürur hissi keçirir. Xalqımız bilir ki, dünyanın ən güclü orduları sırasında yer alan müzəffər ordumuz Qələbə qazandı. Qəhrəman oğullarımız vətənsevərləri ardı kəsilməyən qələbə xəbərləri ilə sevindirdilər. Tarixi torpaqlarımız Azərbaycan əsgərinin addım səsləri üçün səbirsizlənirdi. Uğrunda qanlar axıdıb, şəhidlər verdiyimiz torpaqlarımızın gözünü yolda qoymadıq. İşğalda olan bütün torpaqlarımızı azad etdik. Bu, Böyük Qayıdışın harayıdır. İşğaldan azad edilmiş torpaqlarımızda dalğalanan möhtəşəm üçrəngli bayrağımızı seyr etməyin verdiyi hissi sözlərlə ifadə etmək mümkünsüzdür. Ali Baş Komandanın rəhbərliyi ilə ordumuzun vətənpərvər, qorxubilməz döyüşçüləri az bir zaman müddətində tarixi torpaqlarımızı düşmən işğalından azad etdilər. Bu haqq savaşında Qələbə qazandıq.

**Əsgər Eldəniz Qaflanov:**

- Azərbaycan Ordusu tarix yazdı. Qəhrəmanlığı, qorxmazlığı ilə düşməni diz çökdürən ordumuzun əsgəri olmağımla fəxr edirəm. Azərbaycan əsgərinin əzmi, əsgər adını şərəflə daşımasının göstəricisi düşmən işğalında olan tarixi torpaqlarımızın azad olunmasıdır. Ordumuz qışın soyuğunda, qarında, yayın qızmar günəşində mərdi-mərdanə Vətən sərhədlərinin keşiyində dayanaraq, Ali Baş Komandanın döyüş əmrini gözləyirdi. Azərbaycan Ordusu verilən əmrlə əzəli və əbədi torpaqlarımızı işğaldan azad etdi. İllərdən bəri düşmən nəzarətində qalan strateji yüksəkliklərdə, doğma şəhər, kənd və qəsəbələrimizdə üçrəngli bayrağımızı dalğalandırdı.

Biz xilaskar əsgərlərik, öz torpaqlarımız uğrunda döyüşürdük. Bizim heç kəsin torpağında gözümüz yoxdur. Qarabağ tarixi Azərbaycan torpağıdır. O torpaqlarda tarixi abidələrimiz, əcdadlarımızın, ata-babalarımızın məzarları var. Biz mütləq o torpaqları geri qaytarmalıydıq və buna nail olduq.

Biz bilirik ki, bu gün dünyanın harasında yaşamasından, yaşından, tutduğu vəzifədən asılı olmayaraq hər bir azərbaycanlı ərazi bütövlüyümüzü bərpa edən Azərbaycan Ordusunun yanındadır. Vətən, torpaq azadlığı qədər müqəddəs bir hiss, duyğu yoxdur. Bu gün biz Vətən qarşısındakı müqəddəs borcumuzu müvəffəqiyyətlə yerinə yetirdik.

**Əsgər İlham Binyətov:**

- Vətənə, torpağa, bayrağa, xalqa sevgi ilə yaşayıb böyüyənlər Vətən sevgisinin nə olduğunu tam anlamı ilə dərk edirlər. Mən və yaşıdlarım müstəqil dövlətin vətəndaşı kimi həyata göz açıb, sevgilərlə böyümüşük, formalaşmışıq. Bu gün rəşadətli ordumuzun sıralarında xidmətimizlə tarixi torpaqların işğaldan azad edilməsində iştirakımızla qürur duyuruq.



İşğaldan azad edilən ərazilərimizdə dalğalanan üçrəngli bayrağımız ordumuzun döyüş qabiliyyətindən, döyüş ruhundan xəbər verir. Bu döyüşlərdə ordumuzun ən müasir silah və texnikalarla təchiz olunduğunu, əsgərlərimizin döyüş hazırlığının yüksək səviyyədə olmasını düşmənə də, bütün dünyaya da sübut etdik.

Qazandığımız hər qələbədə biz xalqımızın inamını, sevgisini, dəstəyini hiss etdik. Bu, bizi yeni qələbələrə, qəsbdə olan son qarış torpağımızı da işğaldan azad etməyə ruhlandırırdı. Biz bu qələbəni qazandıq.

**Əsgər Kamran Nadirov:**

- Azərbaycan əsgəri üçün Vətən hər şeydən üstün, hər şeydən qiymətlidir. Vətən - Anadır.

Sentyabrın 27-dən - əks-hücum əməliyyatının başladığı andan etibarən xalqımız cəbhədən qələbə xəbərləri alırdı. Məğlubiyyəti ilə barışmayan düşmənin hücumlarının qarşısını qətiyyətlə alırdıq. Onları geri çəkilməyə məcbur edirdik.

Məkrli düşmənin atəş nöqtələri Azərbaycan əsgəri tərəfindən yüksək dəqiqliklə susdurulurdu. Əks-hücum əməliyyatı başlanan gündən düşmənin yüzlərlə canlı qüvvəsi məhv edildi, çoxlu sayda texnikası ələ keçirildi. Bunlar Azərbaycan əsgərinin döyüş ruhunu daha da yüksəldirdi.



Döyüş meydanında ordumuzun qarşısında duruş gətirə bilməyən düşmən dinc əhalini hədəfə alıb, xalqımızın iradəsini, əzmini sınayırdı. Bütün bunlar onun acizliyindən xəbər verirdi. Biz düşməndən qisasımızı döyüşlərdə aldıq.

Bu savaşda biz haqqın tərəfdarıyıq. Rəşadətli ordumuz ərazi bütövlüyümüzü bərpa etdi. Ordumuz çox böyük ruh yüksəkliyi ilə döyüşdü, tarixi torpaqlarımızı azad etdi. Biz gücümüzü düşmənə göstərərək zəfər qazandıq!

**Əsgər Kənan Hüseynov:**

- Vətən torpağı bizə səcdəgahdır, toxunulmazdır, müqəddəsdir. Biz bu düşüncəylə böyümüşük, formalaşmışıq. Ali Baş Komandanın əmriylə xalqımızı illərdir həsrətində olduğu xəbərlərlə müjdələmək, Böyük Qələbəni yaşatmaq üçün döyüşdük. İşğaldan azad olunan əzəli torpaqlarımızda üçrəngli bayrağımızı dalğalandırdıq. Biz Böyük Qələbənin əsgərləriyik.

Qüdrətli ordumuz düşmənin arzusunu ürəyində qoyaraq ona döyüşlərdə göz açmağa imkan vermədi. Bu döyüşlər işğalda olan torpaqlarımızın azad olunması ilə başa çatdı. Ən müasir silah-sursatla təchiz olunan ordumuz düşməni tarixi torpaqlarımızdan çıxartdı. Rəşadətli ordumuzu bu qələbələrə ruhlandıran həm də xalqımızın sonsuz sevgisi, inamı və dəstəyi idi.

Bu gun hər bir azərbaycanlının ürəyi bizimlədi. Biz bunu hiss edirik. Xalqımız ordusunun, Ali Baş Komandanının ətrafında sıx birləşərək böyük qələbə qazandı. Şanlı Ordumuz bu haqq savaşından Böyük Qələbə ilə çıxdı. Qarabağ Azərbaycandır!

**Əsgər Azər Əlizadə:**

- Ordumuzun uğurlu əks-hücum əməliyyatı davam etdikcə zəfərlər qazanırdıq. İşğaldan azad edilmiş ərazilərimizin coğrafiyası genişləndi. Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı rayonları və musiqi beşiyimiz olan Şuşa işğaldan azad edildi. Mən ordu sıralarında xidmətə başlayanda keçirdiyim qürur Vətən müharibəsində daha da kükrədi. İnanırdım ki, işğal olunmuş torpaqlarımızı erməni qəsbkarlarından azad edəcəyik. Ordumuz düşməni məğlubiyyətə uğradaraq ərazilərimizi yağılardan təmizlədi. Zəfər zəfərə, uğur uğura qarışdı. Faşist xislətli ermənilər döyüş meydanlarındakı məğlubiyyətlərinin əvəzini dinc əhaliyə raket atmaqla, döyüş bölgələrindən xeyli uzaqlarda yaşayan mülki insanlardan çıxmağa çalışdı. Ordumuza gücü çatmadığından silahsız və günahsız adamları öldürdü. Düşmən bu addımı ilə bizi ruhdan salmaq, əlimizi döyüşdən soyutmaq istəyirdi. Hər şey əksinə oldu. Ermənilərin beynəlxalq konvesiyaların qadağan etdiyi raketləri Azərbaycanın qədim şəhərləri olan Gəncəyə, Bərdəyə atması biz döyüşçüləri daha da hiddətləndirdi, qisas hissimizi daha da coşdurdu. Erməni işğalçıları bu coşub-daşan intiqam hissinin qarşısında dayana bilmədilər. Biz şanlı qələbə qazandıq.

**Baş əsgər Əmrah İbrahimov:**

- Torpaqlarımız Azərbaycan zabitinin, Azərbaycan əsgərinin gücü, qüdrəti və qəhrəmanlığı ilə qəsbkarlardan təmizləndi. Ali Baş Komandan bir-birinin ardınca xalqımıza ordumuzun uğurları haqqında xoş müjdələr verirdi. Deməli olar ki, hər gün yaşayış məntəqələrimizi erməni qəsbkarlarından azad edirdik. Azərbaycan Ordusu düşməni geri sıxışdıraraq irəliləyirdi. Azərbaycan əsgərinin gücü qarşısında dayana bilməyən düşmən qaçırdı. İşğaldan azad



edilmiş torpaqlar, dağıdılmış ellər-obalar Azərbaycan əsgərini gülərüzlə qarşılayırdı. Ağaclar sevincdən budaqlarını yelləyib bizi salamlayırdı. Qəsbkarların yerlə-yeksan etdiyi şəhər və kəndlərimizi bu cür vəziyyətdə gördükcə daha da hiddətlənir, daha da qəzəblənirdik. Bu qəzəb, bu hiddət bizi uğurlara, zəfərlərə həvəsləndirirdi. İşğaldan azad edilmiş torpaqlarımızda, şəhər və kəndlərimizdə, mövqelərimizdə dalğalanan bayraqlarımızı görəndə iftixar hissi keçirirdik. Sevindim ki, o bayrağın dalğalanmağında bir əsgər kimi mənim də payım var. Bu günlər bayrağımız torpaqlarımızın azadlıq rəmzinə çevrilib. Üstünlüyümüzlə davam edən döyüşlər sonda bizə böyük qələbə qazandırdı. Düşmən məğlubiyyətini etiraf etdi və qoşunlarını işğal etdiyi ərazilərdən çıxarır. Azərbaycan əsgəri döyüşdən qalib ayrıldı, düşməni məhv etdi. Yaşasın, Azərbaycan əsgəri!

**(Ardı 5-ci səhifədə)**

# Ali Baş Komandan: Yenilməz ordu Azərbaycan Ordusudur!

(Əvvəli 4-cü səhifədə)

**Kiçik çavuş Alim Rzazadə:**

- Ordumuzun əks-hücum əməliyyatı başlandığı gündən komandanlığın döyüş tapşırıqlarını yerinə yetirirəm. Ordumuzun bölmələri döyüşlərdə yüksək fədakarlıqlar göstərərək düşmənin dərinliklərinə doğru irəlilədi. Artıq təmas xətti yoxdur. Azərbaycan Ordusunun zabit və əsgərlərinin hünəri, vətənpərvərliyi sayəsində erməni qəsbkarları 30 ilə yaxındır, işğal etdikləri tarixi torpaqlarımızdan qovuldu. Hər gün neçə-neçə kəndimiz, yaşayış məntəqəmiz, strateji əhəmiyyətli yüksəkliklər, şəhərlərimiz düşmən işğalından azad olundu. Erməni faşistləri illərdir işğalda qalan



torpaqlarımızda daşı daş üstündə qoymayıb. Şəhərlərimizi, kəndlərimizi, qəsəbələrimizi dağıdıblar. Bütün yaşayış yerlərimiz erməni vandalizminin, erməni vəhşiliyinin qurbanı olub. Onlar bunu etməklə doğma torpaqlarımızı xalqımızın yaddaşından silmək istədilər, lakin buna nail ola bilmədilər. Qaçqınlarımız Ali Baş Komandanımızın rəhbərliyi altında öz əzəli, tarixi torpaqlarına qovuşacaqlar. Azərbaycanımızın şanlı bayrağı azad olunan torpaqlarımızda qürurla dalğalanır. Müdrik xalqımız Ali Baş Komandanının, ordusunun ətrafında sıx birləşib. Ordumuzun cəsur oğulları qısa müddətdə erməni faşistlərinin ayağını müqəddəs torpaqlarımızdan birdəfəlik kəsdilər. Düşmən bütün istiqamətlərdə zəifləyib, ağır itki verdi. Erməni əsgəri texnikalarını, silah-sursatlarını qoyub qaçırdı. Qorxusundan döyüşdən imtina etdi. Düşmənin aqibəti çox acınacaqlıdır. Yaşasın, Azərbaycan Ordusu! Eşq olsun, Azərbaycan əsgərinə!

**Kiçik çavuş Xəyal Hüseynov:**

- Torpaqlarımızın azadlığı uğrunda haqq savaşına qalxmışdıq. Bir qarış torpağımızı belə düşmən əlində qalmayacağıq. Buna xalqımız tam əmin olsun. Əks-hücum əməliyyatı başlandığı gündən nə qədər kəndlərimiz, yaşayış məntəqələrimiz erməni qəsbkarlarından təmizlənib. Azərbaycan əsgəri indi o yerlərə bayrağımızı sancıb. Bir müddətdən sonra illərlə həsrətində qaldığımız doğma yurd yerlərimizə böyük qayıdış başlayacaq. Erməni işğalçıları qaçmaqla canlarını qurtardılar. Düşmənin hərbi hissələri darmadağın edildi. Ordumuzun bölmələri düşmənə sarsıdıcı zərbələr endirdi. Əks-hücum əməliyyatı başlandığı gündən işğalçı erməni silahlı birləşmələri döyüş meydanında çoxlu sayda canlı qüvvəsini itirib. Yüzlərlə döyüş texnikası qənimət olaraq götürülüb. Düşmən layiq olduğu cəzanı aldı. Azərbaycan Ordusunun igid, vətənsevər oğulları şəhidlərimizin qanını yerdə qoymadı. Biz onların qisasını artıqlaması ilə aldıq. Vətən torpağının hər qarışı əzizdir. Çünki o torpaqlarda əcdadlarımızın, ulu babalarımızın ruhu dolaşır. "Torpaqdan pay olmaz" deyib atalarımız. Artıq Şuşada şanlı bayrağımız dalğalanır. Qələbə bizimdir! Qarabağ Azərbaycandır!

**Əsgər Mənsur İbrahimzadə:**

- Bu gün Azərbaycan Ordusu hazırkı mürəkkəb tarixi şəraitdə ölkəmizin ərazi bütövlüyünün bərpası məsələsində arxalana biləcəyimiz yeganə güc mənbəyidir. Son əks-hücum əməliyyatı da sübut etdi ki, Azərbaycan Ordusu qarşıya qoyulan istənilən məsələnin öhdəsindən gəlmək iqtidarındadır. Bu gün Azərbaycan əsgəri yenə də döyüşləri davam etdirməyə təkcə fiziki cəhətdən deyil, mənəvi-psixoloji cəhətdən də hazırdır. Bir əsgər olaraq deyə bilərəm ki, ordumuzun gücünü, qüvvəsini və yenilməzliyini düşmənlərimiz döyüş meydanında gördülər.

Mənfur düşmən hər zaman hiyləgərliklərə əl atıb, bizim doğma torpaqlarımızı öz dədə-baba yurdları kimi qələmə veriblər. Ermənilər düşmənçilik siyasətini artıq neçə illərdir ki, davam etdirirlər. Bu da onların növbəti bir təxribatı idi. Ermənilər atəşkəsi pozub, nəyəsə nail olmaq istəsələr də, niyyətlərinə çata bilmədilər. Onlar başa düşmədilər ki, Azərbaycan Ordusunun şəxsi heyətinin peşəkarlığının, döyüş qabiliyyətinin, əzminin qarşısında duruş gətirə bilməzlər. Ali Baş Komandanımızın qeyd etdiyi kimi, Ermənistan Azərbaycanla təkbətək vuruşa bilməz, onların buna qüdrəti çatmaz. Onlar hansısa qüvvələrin göstərişi ilə bu təxribatı törədirlər. Ermənilər düşünürdülər ki, illər keçəcək və bu hadisələr unudulacaq, azərbaycanlılar daha Qarabağı və işğal edilmiş digər ərazilərini geri istəməyəcək. Amma indi Azərbaycan xalqı, ordusu işğal edilmiş torpaqlarımızın geri qaytarılmasını 30 il əvvəllə müqayisədə daha çox istəyirdi. Ordumuzda, millətimizdə çox böyük ruh yüksəkliyi var idi. Biz əsgərlər bu ruh yüksəkliyi ilə torpaqlarımızı işğaldan azad etdik, tarixi hadisələrin gedişini dəyişdik.

**Əsgər Şamxal Rəhimov:**

- Azərbaycan torpaqlarının işğaldan azad olunması yürüşünə çıxan ordumuz hər birimizin qürur yeridir. Ordumuz müstəqil ölkəmizin atributu, eyni zamanda, qoruyucusudur. Bu gün xalqımızda gələcəyə inam və böyük ruh yüksəkliyi var. Bu inam qətiyyətli Ali Baş Komandana və müzəffər Azər-



baycan Ordusuna olan inamdır. Şəxsi heyətimizdə bu cür ruh yüksəkliyi olduqdan sonra Azərbaycan Ordusu heç vaxt yenilməz. Bu gün Azərbaycan Ordusunun yüksək standartlara cavab verən texnika ilə təmin olunması bizim bir daha düşməni necə yerində oturda biləcəyimizin sübutudur. Azərbaycan Ordusu təkcə fiziki deyil, mənəvi cəhətdən də güclüdür. Mən bütün bunlara görə Ali Baş Komandana minnətdarlığımı bildirirəm, çünki məhz onun sayəsində bu gün Azərbaycanın qürur mənbəyi olan, yenilməz ordusu var. Bu gün insanlarımız küçədə bir əsgərə rast gəldikdə ona qayğı, sevgi ilə yanaşırlar. Çünki hamı əsgərə bir qəhrəman kimi baxır. Mən Azərbaycan Ordusu ilə qürur duyuram!

Biz mütləq şəkildə torpaqlarımızı işğaldan tam azad edəcəyik. Bunu Ali Baş Komandanımız, Azərbaycan Ordusu, Azərbaycan xalqı istəyir. Bunu Vətən uğrunda canlarından keçən şəhidlərimizin ruhu istəyir. Onların qanı yerdə qalmadı. Döyüş meydanında düşmən ordusu Azərbaycan Ordusu ilə bacara bilmədi. Silah və texnikalarını döyüş meydanında qoyub qaçdılar. Bu gün dünyanın müxtəlif yerlərində yaşayan azərbaycanlılar da ruhları, canları ilə biz əsgərlərlə bir sırada döyüşməyə və torpaqlarımızı işğaldan azad etməyə can atırdılar. Biz yüksək döyüş ruhu ilə silahlanmışıq! Əminəm ki, bu silah həmişə bizi qələbələrə qovuşduracaq!



**Çavuş Xəyal Sadıqov:**

- Ötən əsrin sonlarından Azərbaycanın məcburən cəlb olunduğu Dağlıq Qarabağ münaqişəsi və bunun nəticəsində torpaqlarımızın işğalı cari ilin sentyabrın 27-nə kimi əks-hücum əməliyyatı başlayanadək davam edirdi. Ölkəmiz bu günədək problemin həlli üçün beynəlxalq hüquq normalarına hörmətlə yanaşaraq sülh və danışıqlar yolunu seçmişdi. Bununla yanaşı, yağı düşməni torpaqlarımızdan qovmaq üçün ordumuzun daha da gücləndirilməsi yolunda ciddi işlər görülürdü. Ermənistanın Azərbaycanın beynəlxalq qaydalar çərçivəsində addımlar atmasından, sülh prosesindən sui-istifadə edərək münaqişənin həllinin yubadılmasına çalışması, nəhayət, torpaqlarımızın addım-addım azad olunması ilə sonlandı.

Torpaqlarımızın azadlığı naminə görüləcək işlərin əksəriyyəti ordumuzun üzərinə düşdü. Bu gün qürurla deyə bilərik ki, regionun ən qüdrətli ordusu olan Azərbaycan Ordusu qarşıya qoyulan məqsədlərə nail oldu, bir sözlə, tarix yazdı. Düşməni məğlub etmək üçün atılan addımlar təqdirəlayiqdir və bu gün düşmən döyüş meydanında acı məğlubiyyətlə üzləşdi. Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı şəhərlərinin, Şuşanın və digər yaşayış məntəqələrimizin işğaldan zad olunması onu göstərir ki, düşmən ordusu ilə Azərbaycan Ordusunu müqayisə etmək doğru deyil. Ordumuz döyüş meydanında ən müasir silah və texnika ilə düşməni sarsıdırdı, onları qorxu içində saxlayırdı. Vaxtaşırı keçirilən uğurlu döyüş əməliyyatları da birbaşa düşmənin sarsıdılmasına və onu bir növ rahatlaşmağa, əl-qol atmağa imkan vermədi. Bu mənada Azərbaycan Ordusunun son əks-hücum əməliyyatı bir çox dərsliklərin tərkib hissəsi ola biləcək əməliyyatdır. Torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak etdiyimə görə qürur duyuram.

**Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Röyal Mənsimov:**

- Ermənistan ordusunun təxribatlarına cavab olaraq sentyabrın 27-də Azərbaycan Ordusunun həyata keçirdiyi əks-həmlə əməliyyatları nəticəsində yaranan rezonans Ermənistan cəmiyyətində və ordusunda dərin çatların əmələ gəlməsinə səbəb oldu ki, bunun nəticələrini biz bu gün açıq şəkildə müşahidə edirik. Nəticədə erməni xalqı öz "şanlı ordusunu" tanıdı, eyni zamanda, bu ölkədə işğalçılığın və separatizmin dövlət səviyyəsində dəstəkləndiyi təsdiq olundu. Bu gün ermənipərəst qüvvələr, münaqişənin həllinə ikili standartlarla yanaşan bəzi qurumlar həqiqətə göz yumsalar da, əslində, hər şey aydındır. Ermənistan 30 ildən artıq idi ki, işğalçılıq siyasətini davam etdirərək bölgədə sabitliyə, sülhə ən böyük təhlükə yaradırdı.

Həmin təhlükənin qarşısını alan, onu qorxuya salan yeganə qüvvə Azərbaycan Ordusudur. Son döyüşlərdə bir daha illərlə yaradılan "məğlubedilməz erməni ordusu" mifi dağıldı və erməni xalqı işğalçılıq siyasətinin iflasa uğradığını dərk etdi. Torpaqlarımızın işğaldan azad olunması ilə nəticələnən son savaşlar əsgərlərimizin döyüş ruhunun, ordu ilə xalqın birliyinin təcəssümü oldu. Erməni qəsbkarları artıq yaxşı bilirlər ki, Azərbaycan torpaqlarında onlara yer yoxdur. Erməni işğalçıları, eyni zamanda, dünya ictimaiyyəti də başa düşdü ki, qəsb edilmiş ərazilərin hərb yolu ilə azad edilməsi mümkün imiş. Azərbaycan xal-



qı, dövləti və ordusu bunu beynəlxalq hüquq normalarına əsasən həyata keçirtdi. Uğurlu əməliyyatlar Ermənistanın işğalçılıq siyasətini danılmaz faktlarla yenidən təsdiqlədi. Belə ki, döyüşlərdə ölənlərin əksəriyyətinin Ermənistan hərbi qulluqçularının olması, onların Ermənistan hökuməti tərəfindən mükafatlandırılması, yaralıların böyük bir hissəsinin Ermənistanın tibb müəssisələrində müalicə alması və dövlət tərəfindən "separatçı cəlladların" könüllü adı altında yenidən Qarabağa göndərilərək erməni ordusunun qoyub qaçdığı səngərlərə doldurulması cəhdi və s. faktlar buna əyani sübutdur.

Ali Baş Komandanımızın göstərdiyi qətiyyət və bundan ruhlanan Azərbaycan Ordusunun qazandığı qələbələr torpaqlarımızın mütləq şəkildə işğaldan azad edilməsi və ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi ilə nəticələnirdi. Döyüşlər göstərdi ki, Azərbaycan Ordusunun gücü, qüdrəti yetərincədir. Azərbaycan əsgəri sübut etdi ki, dünya ictimaiyyəti bu məsələnin sülh yolu ilə həllinə nail ola bilmədi, amma ordumuz bunu bacardı. Azərbaycan Ordusu üzərinə düşən müqəddəs vəzifələri şərəflə yerinə yetirdi.